# Elnarə Akimova Yeni TV-nin canlı yayımında




Filologiya elmləri doktoru, ədəbiyyatşünas alim, YAP İdarə Heyətinin üzvü Elnarə Akimova Yeni TV-də canlı yayımın qonağı olub. Veriliş boyu əsas mövzu Gəncədə Memorial Kompleksin açılışı və Şuşa ilinin əhəmiyyəti olub. Elnarə Akimova 2020-ci ildə törədilmiş Gəncə hadisələrinə toxunub. Gəncənin müharibə vaxtı döyüşən şəhər statusu qazanmasını, baş verənlərə rəğmən əyilməz, mübariz obrazını önə çəkib. Ermənilərin Gəncədə törətdiyi ağlasığmaz vəhşiliyi illərdir xalqımıza qarşı davam edən cinayətin növbəti halqası adlandırıb. Eyni zamanda Elnarə Akimova Gəncədə açılan Memorial Kompleksi erməni vandallığına ucalan layiqli abidə hesab edərək, bununla ölkə başçısının dünyanın gözləri önünə düşmənin əsl obrazını əyaniləşdirdiyini və gələcək üçün yaddaş salnaməsi hasilə gətirdiyini vurğulayıb.




Daha sonra Prezidentin Şuşa ili ilə bağlı verdiyi sərəncama toxunan müsahib bunu sülhə və mədəniyyətə çağırışın simvolu kimi dəyərləndirib. 2022-ci ilin mədəniyyət sahəsində böyük hadisələrlə yadda qalacağını, artıq bu yöndə müəyyən işlər görüldüyünü, hazırlıq prosesi başlandığını nəzərə çatdıran Elnarə Akimova Şuşa ilində humanitar düşüncənin hansı istiqamətdə fəaliyyət göstərməsi, hansı mövzularda yaranmış boşluqlara diqqəti artırmağın zəruriliyi ilə bağlı təklif və tövsiyyələrini də səsləndirib. Qeyd edib ki, vaxtilə Ümummilli lider Heydər Əliyevin qürurla və kövrək uslubda səsləndirdiyi "Şuşa Azərbaycanın gözüdür" ifadəsi indi öz əyanilik zamanını gözləyir. Onun ehtiva olunduğu gözəlliklərin üzə çıxarılmasına, qədimliyinin tarixi dərkini verməyə, həmçinin yeni təfəkkür işığında təqdimatına, səviyyə və mənzərəsinin dəyərləndirilməsinə, eləcə də mövzu ilə bağlı elmi-nəzəri fikrin tarixiliyi və müasirliyini görməyə böyük ehtiyac var və heç şübhəsiz, "Şuşa ili" bunların geniş aspektdə realizəsinə imkan yaradacaqdır.